**Kafedranın təşkilatçılığı ilə keçirilmiş elmi konfranslar, seminarlar, simpoziumlar, dəyirmi masalar və tədbirlər haqqında.**

**1. 27 Sentyabr- Anım Gününə həsr olunan "27 Sentyabr: Xalqımızı şərəf kürsüsünə qaldırmış qəhrəmanlıq tarixi" mövzusunda dəyirmi masa keçirilib.**

2022-ci ilin 23 sentyabr tarixində 27 Sentyabr- Anım Gününə həsr olunan "27 Sentyabr: Xalqımızı şərəf kürsüsünə qaldırmış qəhrəmanlıq tarixi" mövzusunda dəyirmi masa keçirilib. Universitetin tələbə və müəllim kollektivi üzvlərinin qatıldığı dəyirmi masada mingəçevirli şəhid qardaşları Əli və İslam Əhmədovların anası Sevinc Əhmədova da iştirak edib.

Giriş sözü ilə Humanitar fənlər kafedrasının müdiri, dosent Esmira Cəfərova çıxış edib. Daha sonra, Humanitar fənlər kafedrasının baş müəllimi Mətanət Yusifovanın moderatorluğu ilə məruzələr dinlənilib. Təhsil fakültəsinin tələbələrindən Səbinə Əliyeva "XX əsrin sonu-XXI əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi vəziyyəti haqqında", Türkan Qaffarova "Vətən müharibəsinin başlanması", İlahə İbrahimova "Anım gününün təsis edilməsi", Nurcan Vəliyeva "Vətən müharibəsinin şəhid müəllimləri", Elnarə Hüseynova "MDU-nun şəhid məzunları", Aygün Sadıqova "İkinci Qarabağ müharibəsi zamanı Azərbaycanın mülki əhalisinə qarşı törədilən cinayətlər: Bərdə müharibə günlərində", Sevinc Cabbarlı Ağdam rayonunun ərazisi müharibə dövründə", Zəhra Niftəliyeva "Füzuli rayonunun vəziyyəti haqqında", Mirvari Həmidli "Gəncə terroru", Aysun Yusibova "Goranboyda müharibənin fəsadları haqqında" və Səma Süleymanova "Möhtəşəm qələbəmizin şahidi olacaq "Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyi" mövzularında çıxış ediblər.

**2. "27 Sentyabr – Anım Günü"nə həsr olunan "Xalqımızı şərəf kürsüsünə qaldırmış qəhramanlıq tarixi" mövzusunda mühazirə keçirilib**

2022-ci ilin 23 sentyabr tarixində Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə "27 Sentyabr – Anım Günü"nə həsr olunan "Xalqımızı şərəf kürsüsünə qaldırmış qəhramanlıq tarixi" mövzusunda mühazirə keçirilib. "Microsoft Teams" platforması üzərindən onlayn formatda təşkil olunan mühazirədə MDU-nun bir qrup professor-müəllim heyəti üzvü, tələbə və magistrantlar iştirak edib.

Mühazirədə giriş sözü ilə çıxış edən Humanitar fənlər kafedrasının müdiri, dosent E.Cəfərova mühazirənin önəmini diqqətə çatdırıb. Sonra, Humanitar fənlər kafedrasının müəllimi Aygün Qədirova məruzə ilə çıxış edib.

**3. 27 Sentyabr – Anım Gününə həsr olunan "Xatirələrdə əbədiləşən qəhraman şəhidlərimiz" mövzusunda elmi-praktiki konfrans keçirilib.**

2022-ci il 26 sentyabrda 27 Sentyabr – Anım Gününə həsr olunan "Xatirələrdə əbədiləşən qəhraman şəhidlərimiz" mövzusunda elmi-praktiki konfrans keçirilib. Konfransda şəhid ailəsi üzvləri, qazilər, MDU-nun İctimai Nəzarət Şurasının nümayəndələri, universitetin əməkdaşları, tələbə və magistrantları iştirak ediblər..

Universitetin şəhid məzunları haqqında videoçarx nümayiş olunduqdan sonra MDU-nun rektoru Şahin Bayramov giriş sözü ilə konfransı açıb.Humanitar fənlər kafedrasının dosenti Asim Məmmədov "Vətən müharibəsinin mülki qurbanlarını unutmayaq, unutdurmayaq", müəllimləri Gülər Əjdərzadə "Sərkərdəlik istedadı və davamlı qələbələrə zəmanət verən misilsiz cəsarət", Ceyran Vəliyeva "Qəhrəmanlıq

nümunələrinin şüurumuzda həkk olunmuş ədəbi obrazları" və Tələbə Vətənpərvərlik İnkişafı Mərkəzinin koordinatoru Minayə Hüseynova "Şəhidlik və mübarizlik əbədiyyətə aparan müqəddəs yol kimi" mövzusunda məruzələrlə çıxış ediblər.

**4. MDU-da "Aşıq ədəbiyyatı antologiyası" toplusunun təqdimatı keçirilib.**

2022-ci ilin 14 oktyabr tarixində Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə Xalq Bankın "Xalq əmanəti" layihəsi çərçivəsində nəşr olunmuş üççildlik "Aşıq ədəbiyyatı antologiyası" çoxcildliyinin təqdimatı keçirilib. Təqdimat mərasimində MDU-nun bir qrup professor-müəllim heyəti üzvü, tələbə və magistrantlar iştirak edib.

Təqdimatı giriş sözü ilə açan Humanitar fənlər kafedrasının müdiri, dosent Esmira Cəfərova çoxcildliyin əhəmiyyətindən danışıb. Qeyd edilib ki, aşıq poeziyası, qəhrəmanlıq və məhəbbət dastanlarını əhatə edən üç tematik cilddən ibarət "Aşıq ədəbiyyatı antologiyası" nüfuzlu alimlərdən ibarət işçi qrupunun uzunmüddətli tədqiqat işinin nəticəsidir.

Kitab haqqında videoçarxın nümayişindən sonra məruzələr dinlənilib. Humanitar fənlər kafedrasının akademik heyət üzvlərindən Səadət Ağakişiyeva "Aşıq ədəbiyyatı antologiyası" xalqın milli-mənəvi irsinə hörmət və sevginin ifadəsidir", Ceyran Vəliyeva "Aşıq poeziyası" cildi Qarabağ aşıq sənətinin ən yaxşı nümunələrinin yer aldığı dəyərli kitabdır", Pərvin Hüseynova "Antologiyanın "Məhəbbət dastanları" cildində yer alan qəhrəman qadın obrazları", Nigar Məhərrəmova "Antologiyanın "Qəhrəmanlıq dastanları" Azərbaycan xalqının təmsil etdiyi dəyərlərin və aşıladığı idealların toplusudur" və Gülnar Vəliyeva "İbtidai siniflərdə "Aşıq ədəbiyyatı antologiyası"ndan nümunələrin tədrisi və onun əhəmiyyəti" mövzularında məruzələrlə çıxış ediblər.

**5. Mingəçevir Dövlət Universitetində Müstəqilliyin Bərpası Gününə həsr olunan birgə konfrans keçirilib.**

2022-ci ilin oktyabrın 17-də Mingəçevir şəhər İcra Hakimiyyəti, Mingəçevir Dövlət Universiteti (MDU) və Lənkəran Dövlət Universitetinin (LDU) birgə təşkilatçılığı ilə 18 oktyabr – Müstəqilliyin Bərpası Gününə həsr olunmuş "Davamlı inkişaf edən müstəqil Azərbaycan" mövzusunda elmi-nəzəri konfrans keçirilib.

Konfransda Humanitar fənlər kafedrasının dosentləri Nizami Zeynalov "Azərbaycanın dövlət müstəqilliyinin bərpasının tarixi zəruriliyi və əhəmiyyəti" və Esmira Cəfərova "Müstəqilliyimiz bu gün: reallıqlar və perspektivlər" mövzusunda məruzə ediblər.

**6. MDU-da "Şuşa İli"nə həsr olunmuş elmi-praktiki konfrans keçirilib.**

2022-ci ilin 2 noyabr tarixində "Şuşa İli"nə həsr olunmuş "Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsidir" mövzusunda elmi-praktiki konfrans keçirilib. Konfransda MDU-nun akademik və inzibati heyəti, İctimai Nəzarət Şurasının üzvləri, KİV nümayəndələri, tələbə və magistrantlar iştirak edib.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlanan konfransda Vətən uğrunda canından keçən qəhrəman şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransın açılışında MDU-nun rektoru Şahin Bayramov çıxış edib.

Sonra, Humanitar fənlər kafedrasının müəllimi Səbinə Novruzovanın moderatorluğu ilə konfransın məruzələri dinlənilib. MDU-nun "Azərbaycan bayrağı" ordenli tələbəsi Elnur Salahov "44 günlük Vətən müharibəsinin zəfər zirvəsi: Şuşa",

kafedranın əməkdaşlarından Aygün Qədirova “Şuşa Azərbaycanın mədəniyyət mərkəzidir”, Günel Yunusova “Azərbaycan ədəbiyyatında Şuşa ədəbi mühitinin yeri və rolu”, Fəxriyyə İsayeva “Ədəbiyyatımızda Şuşa mövzusu” mövzusunda məruzələrlə çıxış ediblər.

**7. İrəvan Müəllimlər Seminariyasının 140 illik yubileyinə həsr olunmuş elmi-praktiki konfrans keçirilib.**

2022-ci ilin 2 noyabr tarixində Mingəçevir Dövlət Universitetinin (MDU) Təhsil fakültəsində İrəvan Müəllimlər Seminariyasının 140 illik yubileyinə həsr olunmuş “Azərbaycan təhsil tarixinin şərəfli səhifəsi“ mövzusunda elmi-praktiki konfrans keçirilib. Tədbirdə MDU-nun bir qrup akademik və inzibati heyət üzvü, tələbə və magistrantlar iştirak edib.

Konfransın açılışında Təhsil fakültəsinin dekanı Nizami Zeynalov və Elm və innovasiyalar şöbəsinin müdiri Vüqar Mustafayev çıxış edib.
Sonra, konfransın proqramına uyğun olaraq məruzələr dinlənilib.

MDU-nun Humanitar fənlər kafedrasının müəllimlərindən Mətanət Yusifova “XIX əsrin sonları-XX əsrin əvvəllərində Cənubi Qafqazda tarixi şərait”, Gülər Əjdərzadə “İrəvan Müəllimlər Seminariyasının yaradılması zərurəti”, Mirzə Cavadov “İrəvan Müəllimlər Seminariyasının məzunları”, Tahirə Quliyeva “İrəvan Müəllimlər Seminariyasının bağlanması səbəbləri” , Psixologiya və pedaqogika kafedrasının dosenti Sahib Məmmədov “Müəllim hazırlığında yeni yanaşma: ənənə yaşayır” və müəllimi Ülviyyə Verdiyeva “Azərbaycan təhsil tarixində İrəvan Müəllimlər Seminariyasının rolu və əhəmiyyəti” mövzularında məruzələrlə çıxış ediblər.

**8. MDU-da Zəfər Gününə həsr olunan konfrans keçirilib.**

2022-ci ilin 3 noyabr tarixində Mingəçevir Dövlət Universitetində (MDU) “8 Noyabr- Zəfər Günü”nə həsr olunan “Azərbaycan tarixinə qızıl hərflərlə həkk olunmuş ümumxalq Zəfəri” mövzusunda elmi-nəzəri konfrans keçirilib. Konfransda şəhid ailələrinin üzvləri, qazilər, MDU-nun akademik və inzibati heyəti, İctimai Nəzarət Şurasının üzvləri, KİV nümayəndələri, tələbə və magistrantlar iştirak edib.

Dövlət Himninin səsləndirilməsi ilə başlanan konfransda ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransın açılışında çıxış edən MDU-nun rektoru Şahin Bayramov 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfərin ikinci ildönümü münasibətilə iştirakçılara təbriklərini çatdırıb. Daha sonra, MDU-nun Humanitar fənlər kafedrasının müəllimi Şəlalə Quliyevanın moderatorluğu ilə konfrans məruzələrlə davam edib. MDU-nun Təhsil fakültəsinin dekanı Nizami Zeynalov “Müstəqillikdən başlanan Zəfər yolu”, Mexanika kafedrasının müdiri və Vətən Müharibəsi iştirakçısı Mahir İsmayılov “44 günlük Vətən Müharibəsi şanlı tariximizdir” və Humanitar fənlər kafedrasının əməkdaşı, əməkdar müəllim Könül Aydın “Ədəbiyyatda şanlı Zəfər yolu” mövzusunda çıxış ediblər.

**9. Zəfər Gününə həsr olunan mühazirə keçirilib.**

2022-ci ilin 5 noyabr tarixində Mingəçevir Dövlət Universitetində (MDU) 8 Noyabr – Zəfər Gününə həsr olunmuş “44 günlük Vətən müharibəsi Azərbaycan xalqının zəfər tarixidir” mövzusunda mühazirə keçirilib. Mühazirədə universitetin professor-müəllim heyəti üzvü, tələbə və magistrantları iştirak edib.

Mühazirədə giriş sözü ilə çıxış edən MDU-nun Humanitar fənlər kafedrasının müdiri, dosent Esmira Cəfərova 44 günlük Vətən müharibəsində qazanılan qələbənin Azərbaycanın müstəqillik və qəhrəmanlıq tarixinin ən şanlı səhifələrindən olduğunu diqqətə çatdırıb. Sonra, kafedranın baş müəllimi Mətanət Yusifova məruzə ilə çıxış edib.

**10. İstanbul Gedik Universiteti və Mingəçevir Dövlət Universiteti arasında əməkdaşlıq çərçivəsində Zəfər Gününə həsr olunan birgə tədbir keçirilib.**

2022-ci ilin 7 noyabr tarixində İstanbul Gedik Universiteti və Mingəçevir Dövlət Universiteti (MDU) arasında əməkdaşlıq çərçivəsində Qarabağ Zəfərinin ikinci ildönümünə həsr olunan birgə tədbir keçirilib.

ZOOM proqramı üzərindən onlayn formatda təşkil edilən tədbirin açılışında İstanbul Gedik Universitetinin rektoru Ahmet Kesik və MDU-nun rektoru Şahin Bayramov çıxış ediblər. Panel sessiyada İstanbul Gedik Universitetinin akademik heyət üzvlərindən professor Gülsün Ayhan Aygörmez “Zəfər Günü və dövlət müstəqilliyi”, professor Enver Alper Güvel “Müstəqilliyin bərpasından sonra Azərbaycanın iqtisadi performansı və potensialı”, MDU-nun akademik heyət üzvlərindən dosent Elgün Aslanov “Azərbaycan – Türkiyə qardaşlığı zəfərlərimizin qarantıdır” və müəllim Şəlalə Quliyeva “Regional və dünya nizamını dəyişdirən 44 günlük Vətən Müharibəsi” mövzularında məruzələrini təqdim etmişlər.

**11. MDU-da Mingəçevir şəhərinin dünəni və bu günü mövzusunda mühazirə keçirilib.**

2022-ci ilin 11 noyabr tarixində Mingəçevir Dövlət Universitetinin (MDU) Təhsil fakültəsinin Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə Mingəçevir şəhərinin 74 illiyinə həsr edilmiş “Mingəçevir şəhərinin dünəni və bu günü” mövzusunda mühazirə keçirilib.

Mühazirədə giriş sözü ilə çıxış edən kafedra müdiri Esmira Cəfərova Mingəçevirin günü-gündən inkişaf etdiyini və müasirləşdiyini qeyd edib və doğma şəhərin yaradılmasının 74 illiyi münasibətilə təbriklərini çatdırıb. Təməlinin XX əsrin ortalarından qoyulmasına baxmayaraq Mingəçevirin yerləşdiyi ərazinin köklü tarixə sahib olduğunu diqqətə çatdıran E.Cəfərova tələbələrin təhsil aldıqları şəhərin keçmişi və bu günü ilə bağlı maarifləndirilməsinin zəruriliyini və mühazirənin önəmini vurğulayıb.

Sonra, kafedranın müəllimi Vüsalə Mövlayeva məruzə ilə çıxış edib. Məruzədə Mingəçevirin qədim tarixindən, təbii-coğrafi mövqeyindən və sosial-iqtisadi inkişafından bəhs edilib.

**12. MDU-da Konstitusiya Günü qeyd olunub.**

2022-ci ilin 12 noyabr tarixində Mingəçevir şəhər İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyasının (YAP) Mingəçevir şəhər təşkilatı və Mingəçevir Dövlət Universitetinin (MDU) birgə təşkilatçılığı ilə Konstitusiya Gününə həsr edilən elmi-nəzəri konfrans keçirilib.

Humanitar fənlər kafedrasının əməkdaşlarından Aygün Qədirova “Heydər Əliyev konstitusiyalı dövlət quruculuğunun banisidir”, Mirzə Cavadov “Müstəqil Azərbaycan tarixinin parlaq səhifəsi: mükəmməl konstitusiya” və Üzeyir Zeynalov “Azərbaycan Respublikasının Konstitusiyası insan hüquq və azadlıqlarının təminatıdır” mövzusunda məruzələrlə çıxış ediblər.

**13. Əhməd Cavadın 130 illik yubileyi qeyd olunub.**

2022-ci ilin 14 noyabr tarixində Mingəçevir Dövlət Universitetində (MDU) Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Əhməd Cavadın anadan olmasının 130 illiyinə həsr olunan “Milli istiqlal şairi Əhməd Cavad” mövzusunda elmi-praktiki konfrans keçirilib.

Konfransın açılışında çıxış edən MDU-nun rektoru Şahin Bayramov elmi tədbirin Əhməd Cavadın 130 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən təşkil edildiyini diqqətə çatdırıb və konfransın önəmini vurğulayıb. Sonra, proqrama uyğun olaraq məruzələr dinlənilib. MDU-nun Humanitar fənlər kafedrasının əməkdaşlarından Günel Yunusova “Əhməd Cavadın dünyagörüşündə türkçülük və istiqlalçılıq”, Fəxriyyə İsayeva “Əhməd Cavadın “Səsli qız” poemasında avtobioqrafik izlər”, Səbinə Novruzova “Mövzu rəngarəngliyi Əhməd Cavad poeziyasının özəlliyidir” və Ayna Babazadə “Əhməd Cavad yaradıcılığında istiqlal mücadiləsi” mövzusunda çıxış ediblər. Kafedranın digər əməkdaşlarından isə Pərvin Hüseynova “Əhməd Cavad şeirlərində Türkiyə məhəbbəti”, Səadət Ağakişiyeva “Əhməd Cavad yaradıcılığında  qoşma”, Ceyran Vəliyeva “Əhməd Cavad poeziyasında nikbin və kədərli rənglərin vəhdəti”, Gülnar Vəliyeva “Xalqımızın tarixində əbədi yaşayan Əhməd Cavad şərqiləri” və Svetlana Balakişiyeva “Ümumtəhsil məktəblərində Əhməd Cavad yaradıcılığının tədrisi xüsusiyyətləri” mövzusunda məruzələrini təqdim ediblər.

**14. MDU-da “ Gənclər arasında erkən nikahlar və onun mənfi tərəfləri” mövzusunda seminar keçirilib.**

2022-ci ilin 22 noyabr tarixində Mingəçevir Dövlət Universitetinin (MDU) Təhsil fakültəsinin Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə “Gənclər arasında erkən nikahlar və onun mənfi tərəfləri” mövzusunda seminar keçirilib.

Fakültənin əməkdaşları, tələbə və magistrantların iştirakı ilə keçirilən seminarda kafedra müdiri Esmira Cəfərova giriş sözü, Humanitar fənlər kafedrasının müəllimi Hüseyn Əsgərov “Erkən nikahlar: hüquqi aspektlər və problemlər” mövzusunda məruzə ilə çıxış ediblər.

**15. “Şuşa İli”nə həsr edilən dəyirmi masa keçirilib.**

2022-ci ilin 3 dekabr tarixində Mingəçevir Dövlət Universitetinin Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə “Şuşa İli”nə həsr edilən “Tarixin, mədəniyyətin, qəhrəmanlığın, zəfərin simvolu – Şuşa!” mövzusunda dəyirmi masa keçirilib. Mingəçevir Tarix Muzeyində təşkil edilən dəyirmi masada MDU-nun Təhsil fakültəsinin  bir qrup akademik və inzibati heyət üzvü, tələbə və magistrantlar iştirak ediblər.

Humanitar fənlər kafedrasının müdiri, dosent Esmira Cəfərova tədbirdə giriş sözü ilə, Humanitar fənlər kafedrasının müəllimləri Vüsalə Mövlayeva “Böyük Zəfərin tarixi fəlsəfi dərki”, tələbələrdən Səma Süleymanova “Qarabağın tarixi siyasi coğrafiyası”, Aysel Məmmədova “Qarabağ xanlığı”, Nurcan Vəliyeva “Müstəmləkə siyasətinin Şimali Azərbaycanda ağır sosial-siyasi şərtləri”, Hikmət Qaffarov “Tarixi qələbə- Zəfər Günü”, İlahə İbrahimova “Şuşa ili”, Sevinc Cabbarlı “Şuşa Azərbaycanın mədəniyyət mərkəzidir”, Nurçin Məcidova “Şuşa ədəbi mühitinin ədəbiyyatımıza gətirdiyi yeniliklər”, Rəvan Məmmədsanlı “Şuşa böyük tarixi abidədir”, Sevda Cəfərova “Qarabağın turizm potensialı” və Əli Abbasov “Qarabağın sosial-iqtisadi inkişafı” mövzusunda məruzələrlə çıxışlar ediblər.

**16. “Müzəffər Ali Baş Komandan: Qalib lider” mövzusunda elmi konfrans keçirilib.**

2022-ci ilin 23 dekabr tarixində Mingəçevir Dövlət Universitetində “Müzəffər Ali Baş Komandan: Qalib lider” mövzusunda elmi konfrans keçirilib.

Humanitar fənlər kafedrasının müdiri Esmira Cəfərova öz mübarizliyi, cəsarəti, qətiyyəti və mütərəqqi əməlləri ilə seçilən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müasir Azərbaycanın şərəfli tarixini yazdığını diqqətə çatdırıb. Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı olan möhtərəm Prezidentimizin Azərbaycan xalqının sonsuz sevgisini qazandığı vurğulanıb. 44 günlük Vətən müharibəsində qazandığımız tarixi zəfərin memarı olan Müzəffər Ali Baş Komandanın 30 illik işğala son qoyduğu və müstəqil Azərbaycanın parlaq gələcəyini təmin etdiyi bildirilib.

Humanitar fənlər kafedrasının əməkdaşları Günel Yunusova “Milli-mənəvi dəyərlərimizin qarantı: layiqli varis”, Şəlalə Quliyeva “Müzəffər Prezidentin xarici siyasət doktrinası” və Xədicə Abdullayeva “Dünyaya nümunə: Qalib liderin gənclər siyasəti” mövzusunda məruzələrlə çıxış ediblər.

**17. 20 Yanvar- Ümumxalq Hüzn Gününə həsr olunan elmi konfrans keçirilib.**

2023-cü ilin 18 yanvar tarixində Mingəçevir Dövlət Universitetində Ümumxalq Hüzn Gününə həsr olunmuş “20 Yanvar həqiqətlərinin ictimaiyyətə çatdırılmasında ümummilli lider Heydər Əliyevin rolu” mövzusunda elmi konfrans keçirilib.

Konfransın açılışında MDU-nun rektoru Şahin Bayramov çıxış edib. Humanitar fənlər kafedrasının əməkdaşlarından Mirzə Cavadov “Xalqının faciəsini dünyaya bəyan edən cəsarətli lider”, Anar İsmayılov “20 Yanvar Azərbaycan tarxininin şərəf və qəhrəmanlıq səhifəsidir”, Leyla Babayeva “Müstəqillik yolunun ilk zirvəsi – 1990-cı ilin 20 yanvarı”, Fəxriyyə İsayeva “20 Yanvar faciəsi bədii ədəbiyyatda”, Sənan Mehdi “Sovet dönəmində Rusiyanın Qafqaz siyasəti”” mövzusunda məruzələrlə çıxış ediblər.

**18. MDU-da mühazirə: “20 Yanvar Azərbaycan xalqının milli qürur günüdür”.**

2023-cü ilin yanvarın 17-də Mingəçevir Dövlət Universitetində Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə Ümumxalq Hüzn Gününə həsr olunmuş “20 Yanvar Azərbaycan xalqının milli qürur günüdür ” mövzusunda mühazirə keçirilib..

Mühazirədə giriş sözü ilə Humanitar fənlər kafedrasının müdiri, dosent Esmira Cəfərova, Humanitar fənlər kafedrasının baş müəllimi Mətanət Yusifova məruzə ilə çıxış edib.

**19. MDU-da elmi konfrans: Ümummilli lider Heydər Əliyev və Azərbaycan gəncliyi**

2023-cü ilin fevralın 1-də Mingəçevir Dövlət Universitetində “Heydər Əliyev İli” və 2 Fevral – Azərbaycan Gəncləri Gününə həsr olunan “Ümummilli lider Heydər Əliyev və Azərbaycan gəncliyi” mövzusunda elmi konfrans keçirilib.

Kafedranın əməkdaşlarından Esmira Cəfərova “Ümummilli lider Heydər Əliyev və dövlət gənclər siyasəti”, Svetlana Balakişiyeva “Azərbaycan gəncinin düşüncəsində Heydər Əliyev fenomeni”, Xədicə Abdullayeva “Heydər Əliyev ideyalarına əsaslanan yeni dövrün gənclər siyasəti: Azərbaycanın gələcəyi etibarlı əllərdədir” mövzusunda məruzələrlə çıxış ediblər.

Qeyd edək ki, Ümummilli lider Heydər Əliyevin zəngin irsinin öyrənilməsi və gənc nəsil arasında təbliği kafedrada diqqət mərkəzində saxlanılır.

**20. MDU-da “Heydər Əliyev İli” çərçivəsində elmi-praktik konfrans**

2023-cü ilin fevralın 28-də kafedranın təşkilatçılığı ilə Mingəçevir Dövlət Universiteti və Yeni Azərbaycan Partiyasının Mingəçevir şəhər təşkilatının birgə “Heydər Əliyev İli” çərçivəsində Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrünə həsr olunan “Ümummilli Lider: tarix yaradan Heydər Əliyev nümunəsi” mövzusunda elmi-praktik konfrans keçirilib. Konfransda MDU-nun bir qrup akademik və inzibati heyət üzvü, tələbə və magistrantları, şəhər partiya təşkilatının nümayəndələri iştirak ediblər.

“Qəlblərdə və xatirələrdə əbədiləşən ümummilli lider Heydər Əliyev” adlı videoçarx nümayiş olunub və konfransın proqramına uyğun olaraq məruzələr dinlənilib.

**21. Universitet və məktəb kollektivi birgə Xocalı Soyqırımı Gününü qeyd ediblər**

2023-cü ilin fevralın 24-də Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə Mingəçevir şəhər 10 saylı tam orta məktəbin şagirdlərinin iştirakı ilə 26 Fevral- Xocalı Soyqırımı Gününə həsr olunmuş “Tarixi qələbəmizlə Xocalı qətliamının günahsız qurbanlarının qisası alındı” mövzusunda konfrans keçirilib. Mingəçevir şəhər 10 saylı tam orta məktəbdə keçirilən konfransda MDU-nun Təhsil fakültəsinin bir qrup akademik və inzibati heyət üzvü, tələbə və magistrantları və məktəbin müəllim və şagird kollektivi iştirak edib.

Məktəblilərə vətənpərvlik ruhunun aşılanması, Xocalı həqiqətlərinin çatdırılması məqsədi daşıyan konfransda “Tarix müəllimliyi” ixtisasının məktəbdə təcrübə keçən tələbələrinin təqdimatında “Xocalı soyqırımına aparan yola siyasi-tarixi baxış”, “Xocalı soyqırımı 20-ci əsrin ən dəhşətli faciələrindəndir”, “Xocalı soyqırımının hüquqi təhlili”, “Xocalı faciəsi dünyanın gözü ilə”, “Ümummilli lider Heydər Əliyev tərəfindən Xocalı soyqırımına siyasi qiymətin verilməsi” və “Tarixi qələbəmizlə Xocalı qətliamının günahsız qurbanlarının qisası alındı” mövzularında məruzələri dinlənilib.

Konfransın ədəbi-bədii hissəsində isə tələbə və şagirdlər Xocalı Soyqırımına həsr olunmuş şeirlər səsləndiriblər.

**22. MDU-da Xocalı soyqırımına həsr olunan elmi konfrans keçirilib**

2023-cü il fevralın 23-də Mingəçevir Dövlət Universitetində Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə Xocalı faciəsinin 31-ci ildönümünə həsr olunan “Xocalı Soyqırımı: Yaddaşlara həkk olunmuş qanlı tarix” mövzusunda elmi konfrans keçirilib. Konfransda Xocalıdan olan bir qrup məcburi köçkün, MDU-nun akademik və inzibati heyət üzvləri, tələbə və magistrantlar iştirak edib.

Konfransın açılışında çıxış edən MDU-nun rektoru Şahin Bayramov otuz bir il əvvəl soyuq qış gecəsində xalqımıza qarşı xüsusi amansızlıqla törədilmiş qətliamın dünya tarixində baş vermis ən dəhşətli soyqırım hadisələrindən olduğunu qeyd edib.

Kafedranın müəllimlərindən Asim Məmmədov “Erməni terrorunun acı nəticəsi: Xocalı soyqırımı”, Tahirə Quliyeva “Xocalını unutmadıq, unutmarıq, unutdurmarıq”, Jalə Qasımova “Xocalı faciəsi Azərbaycan ədəbiyyatında” və Səadət Ağakişiyeva “Xocalı soyqırımı dünya mətbuatının gözü ilə” mövzusunda məruzələrlə çıxış ediblər.

**23. MDU-da Xocalı Soyqırımına həsr olunan mühazirə keçirilib**

2023-cü il fevralın 23-də Mingəçevir Dövlət Universitetində Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə Xocalı soyqırımının 31-ci ildönümünə həsr olunmuş “Azərbaycan xalqının yaddaşına yazılmış qanlı səhifə: Xocalı faciəsi” adlı mühazirə

keçirilib. Mühazirədə MDU-nun bir qrup akademik və inzibati heyət üzvü, tələbə və magistrantları iştirak edib.

MDU-nun Humanitar fənlər kafedrasının müdiri, dosent Esmira Cəfərova giriş sözü ilə çıxış edərək xalqımızın qan yaddaşına əbədi həkk olan Xocalı faciəsinin XX əsrin ən dəhşətli soyqırım cinayətlərindən olduğunu bildirib və faciə qurbanlarına Allahdan rəhmət diləyib. 31 il əvvəl xalqımıza qarşı törədilmiş amansız qətliamın heç zaman unudulmayacağını qeyd edən E.Cəfərova Xocalı həqiqətlərinin gənc nəsilə çatdırılmasının vacibliyindən danışıb və bu baxımdan mühazirənin önəmini vurğulayıb.

Mövzu ilə bağlı Humanitar fənlər kafedrasının müəllimi, Xocalı sakini Tahirə Quliyevanın mühazirəsi dinlənilib.

**24. "İyirminci əsrin əvvəllərində türk-müsəlman əhaliyə qarşı törədilən soyqırım faciəsi unudulmamalıdır" mövzusunda dəyirmi masa.**

2023-cü il martın 30-da Mingəçevir Dövlət Universitetinin Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə 31 Mart – Azərbaycanlıların Soyıqırmı Gününə həsr olunmuş "XX əsrin əvvəllərində türk-müsəlman əhaliyə qarşı törədilən soyqırım faciəsi unudulmamalıdır" mövzusunda dəyirmi masa keçirilib.

Universitetin Təhsil fakültəsinin bir qrup professor-müəllim heyəti üzvü, tələbə və magistrantlarının iştirakı ilə keçirilən tədbirdə, əvvəlcə, soyqırımı qurbanlarının və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Dəyirmi masaya moderatorluq edən MDU-nun Humanitar fənlər kafedrasının müdiri, dosent Esmira Cəfərova bildirib ki, tədbir soyqırımı həqiqətləri barədə gənclərin maarifləndirilməsi məqsədi daşıyır. Ötən əsrin əvvəllərində mənfur ermənilər tərəfindən xalqımıza qarşı törədilmiş amansız soyqırımı hadisələrinin tarixinə diqqəti çəkən E.Cəfərova dəyirmi masada qanlı faciə ilə bağlı müzakirə ediləcək mövzuları nəzərə çatdırıb.

Sonra çıxış və müzakirələrlə davam edən tədbirdə ermənilərin türk-müsəlman əhaliyə qarşı düşmənçilik siyasətinin tarixi kökləri, mart soyqırımının səbəbləri, ölkəmizin müxtəlif bölgələrində törədilmiş kütləvi qətliamların faciəvi nəticələri, milli qırğına siyasi və hüquqi qiymətin verilməsi məsələləri barədə danışılıb və soyqırımı həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində gənc nəslin üzərinə düşən vəzifələrdən bəhs edilib.

**25. "Mart Soyıqırmı Azərbaycan tarixinin heç vaxt unudulmayacaq faciəli səhifəsidir" mövzusunda elmi konfrans**

Mingəçevir Dövlət Universitetində Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmmuş "Mart Soyıqırmı: Azərbaycan tarixinin heç vaxt unudulmayacaq faciəli səhifəsi" mövzusunda elmi konfrans keçirilib. Konfransın açılışında çıxış edən MDU-nun rektoru Şahin Bayramov tariximizin qan yaddaşına çevrilən mart soyqırımından 105 il ötdüyünü bildirib, soyqırımı qurbanlarına və Vətən uğrunda canından keçən şəhidlərimizə Allahdan rəhmət diləyib.

Kafedranın əməkdaşlarından Vüsalə Mövlayeva "Azərbaycanlıların soyqırımının araşdırılması və həqiqətlərin dünyaya yayılmasında Ümummilli lider Heydər Əliyevin rolu və xidmətləri", Anar İsmayılov "31 Mart soyqırımı tarixi mənbələrdə", Sevinc Süleymanova "Milli ədəbiyyatımızda 31 mart 1918-ci il soyqırımının əksi" və Gülər

Əjdərzadə “31 mart – Azərbaycanlıların soyqırımının tarixi dərsləri” mövzusunda məruzələrlə çıxış ediblər.

**26. MDU kollektivi Quba Soyqırımı Memorial Kompleksinə virtual səyahət edib**

2023-cü ilin martın 28-də Mingəçevir Dövlət Universitetində Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə 31 Mart- Azərbaycanlıların Soyıqırımı Günü münasibətilə Quba Soyqırımı Memorial Kompleksinə virtual səyahət həyata keçirilib.

“ZOOM” platforması üzərindən onlayn formatda təşkil edilən virtual səyahət zamanı universitetin bir qrup əməkdaşı, tələbə və magistrantı Kompleks ərazisi ilə tanış olublar, erməni vandallarının ötən əsrdə xalqımıza qarşı respublikamızın müxtəlif bölgələrində törətdikləri soyqırımı aktları barədə ətraflı məlumatlandırılıblar. Bununla yanaşı, o dövrün hadisələrini əks etdirən müvafiq sənədlər və fotolar nümayiş etdirilib və iştirakçıların sualları cavablandırılıb.

**27. 31 Mart Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş mühazirə keçirilib**

2023-ci ilin martın 29-da Mingəçevir Dövlət Universitetində Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş “Xalqın tarixi yaddaşından silinməyən qanlı səhifə” mövzusunda mühazirə keçirilib.

Mühazirəni giriş sözü ilə açan MDU-nun Humanitar fənlər kafedrasının müdiri, dosent Esmira Cəfərova 1918-ci ilin mart-aprel aylarında erməni təcavüzkarları tərəfindən ölkəmizin müxtəlif bölgələrində xalqımıza qarşı xüsusi qəddarlıqla törədilmiş, on minlərlə soydaşımızın qətlinə və itkin düşməsinə səbəb olmuş soyqırımı aktlarından, erməni terroru və vəhşiliklərindən bəhs edib.

Sonra, Humanitar fənlər kafedrasının müəllimi Gülər Əjdərzadənin mühazirəsi dinlənilib.

**28. “Heydər Əliyev ili” çərçivəsində növbəti elmi-praktik konfrans keçirilib**

2023-cü il martın 30-da Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə Mingəçevir Dövlət Universiteti və Yeni Azərbaycan Partiyasının Mingəçevir şəhər təşkilatının birgə “Heydər Əliyev ili” çərçivəsində Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrə həsr olunan “Ümummilli Lider: tarix yaradan Heydər Əliyev nümunəsi” mövzusunda II elmi-praktik konfrans keçirilib. Konfransda şəhər partiya təşkilatının nümayəndələri, MDU-nun İctimai Nəzarət Şurasının üzvləri, professor-müəllim heyəti, tələbə və magistrantlar iştirak ediblər.

Konfransın açılışında MDU-nun rektoru Şahin Bayramov və YAP Mingəçevir şəhər təşkilatının sədri Bəxtiyar Mustafayev çıxış ediblər.

Konfransın proqramına uyğun olaraq məruzələr dinlənilib. Kafedranın əməkdaşı Şəlalə Quliyeva “Heydər Əliyev və Azərbaycanın milli təhlükəsizlik siyasəti” mövzusunda çıxış edib.

**29. MDU-da elmi-praktik seminar: “Məişət zorakılığı və ona qarşı mübarizə”**

2023-cü il martın 28-də Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə Mingəçevir Dövlət Universitetində “Məişət zorakılığı və ona qarşı mübarizə” mövzusunda elmi-praktik seminar keçirilib. “Heydər Əliyev İli” çərçivəsində təşkil olunan seminarda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Yevlax bölgəsi üzrə şöbəsinin və Mingəçevir şəhər 1 saylı

Mediasiya Təşkilatının nümayəndələri, universitetin bir qrup akademik və inzibati heyət üzvü, tələbə və magistrantlar iştirak ediblər.

Seminarda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Yevlax bölgəsi üzrə şöbəsinin baş məsləhətçisi Əlisa Fərəcov "Məişət zorakılığının qarşısının alınması", MDU-nun müəllimi Nərgiz Niftəliyeva "Məişət zorakılığı ilə mübarizənin psixoloji aspektləri" və hüquqşünası Elvin Abbasov "Məişət zorakılığının subyekti" mövzularında məruzələrlə çıxış ediblər.

**30. MDU-da seminar: Yazılı sənədlərin düzgün tərtibi və orfoqrafiya qaydaları**

2023-cü ilin martın 13-də Mingəçevir Dövlət Universitetində "Yazılı sənədlərin düzgün tərtibi və orfoqrafiya qaydaları" mövzusunda seminar keçirilib. MDU-nun Humanitar fənlər kafedrasının müəllimi Svetlana Balakişiyevanın təqdimatında keçirilən seminarda universitetin bir qrup gənc əməkdaşı, tələbə və magistrantlar iştirak ediblər.

Seminarda əməli yazı nümunələri haqqında ətraflı məlumat verilib, onların düzgün tərtibi üçün diqqət yetirilməli məqamlardan və orfoqrafiya qaydalarından bəhs edilib.

**31. MDU-da dəyirmi masa: "Zərifə xanım Əliyeva: ürəklərdə əbədiləşən nurlu xatirə"**

2023-cü il aprelin 28-də Mingəçevir Dövlət Universitetinin Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın anadan olmasının 100 illiyinə həsr olunan "Zərifə xanım Əliyeva: ürəklərdə əbədiləşən nurlu xatirə" mövzusunda dəyirmi masa keçirilib. Kafedra müdiri, dosent Esmira Cəfərovanın moderatorluğu ilə keçirilən dəyirmi masada universitetin akademik və inzibati heyət üzvləri, tələbələr və magistrantlar iştirak ediblər.

Dəyirmi masada çıxış edən universitetin gənc akademik heyət üzvləri və tələbələr qeyd ediblər ki, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı, müzəffər Ali Baş Komandanımız İlham Əliyevi yetişdirən cəfakeş ana Zərifə Əliyeva şərəfli ömür yolu keçib, yüksək mənəvi keyfiyyətləri və çoxşaxəli nümunəvi fəaliyyətləri ilə xalqımıza misilsiz örnəklər miras qoyub.

**32. Akademik Zərifə Əliyevanın anadan olmasının 100 illiyinə həsr olunan mühazirə keçirilib**

2023-cü il aprelin 28-də Mingəçevir Dövlət Universitetinin Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın anadan olmasının 100 illiyi münasibətilə "Zərifə Əliyeva: ziyalılıq və xeyirxahlıq nümunəsi" mövzusunda mühazirə keçirilib. Mühazirədə universitetin bir qrup akademik və inzibati heyət üzvü, tələbə və magistrantlar iştirak ediblər.

Mühazirədə giriş sözü ilə çıxış edən MDU-nun Humanitar fənlər kafedrasının müdiri, dosent Esmira Cəfərova əsl Azərbaycan xanımı, görkəmli elm adamı, oftalmologiya sahəsinin peşəkarı, şəfqətli həkim, ümummilli lider Heydər Əliyevin sədaqətli ömür-gün yoldaşı və ölkəmizə müzəffər sərkərdə, lider bəxş edən qayğıkeş ana Zərifə Əliyevanın yüksək insani dəyərlərə sahib olmasından danışıb.

Humanitar fənlər kafedrasının əməkdaşı Günel Yunusova məruzə ilə çıxış edib.

**33. MDU-da elmi-praktik konfrans: “Böyük Zəfərin başlanğıcı: Aprel döyüşləri”**

2023-cü il aprelin 3-də Mingəçevir Dövlət Universitetində Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə Aprel döyüşlərinin ildönümünə həsr olunmuş “Böyük Zəfərin başlanğıcı: Aprel döyüşləri” mövzusunda elmi-praktik konfrans keçirilib. Konfransda şəhid ailəsi üzvləri, universitetin akademik və inzibati heyət üzvləri, tələbə və magistrantlar iştirak ediblər.

Konfransın açılışında çıxış edən Humanitar fənlər kafedrasının müdüri, dosent Esmira Cəfərova yeddi il əvvəl erməni təxribatına cavab olaraq həyata keçirilən qısamüddətli hərbi əməliyyatlar nəticəsində rəşadətli Azərbaycan Ordusunun əldə etdiyi şanlı qalibiyyətdən bəhs edib. Konfransda Aprel şəhidlərinə həsr olunan videoçarx nümayiş etdirilib.

Konfransa qatılan şəhid ailəsi üzvlərinin adından çıxış edən Aprel şəhidi Rahim Tağıyevin həyat yoldaşı Vüsalə Tağıyeva ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman əsgər və zabitlərimizlə qürur duyduqlarını bildirib, göstərilən diqqət və qayğıya görə ölkə başçısına təşəkkürlərini çatdırıb.

Humanitar fənlər kafedrasının əməkdaşlarından Mətanət Yusifova “Modern ordu quruculuğu siyasəti Aprel döyüşlərinə qədər daxili siyasətin prioritet vəzifəsi kimi”, Aygün Qədirova “2016-cı ilin Aprel döyüşləri xalqımızın qəhrəmanlıq salnaməsidir” və Leyla Babayeva “Gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyəsində Aprel qələbəsinin rolu” mövzusunda çıxış ediblər.

**34. MDU-da elmi konfrans: “Zərifə xanım Əliyeva: Daim ürəklərdə yaşayan nurlu və xeyirxah insan”**

2023-cü ilin mayın 2-də Mingəçevir Dövlət Universitetində görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100 illiyinə həsr olunan “Zərifə xanım Əliyeva: Daim ürəklərdə yaşayan nurlu və xeyirxah insan” mövzusunda elmi konfrans keçirilib.

Konfransın açılışında MDU-nun rektoru Şahin Bayramov çıxış edib. Rektor çıxışında Zərifə xanım Əliyevanı dəyərli alim, mehriban və qayğıkeş oftalmoloq həkim kimi xarakterizə edib.

Konfransın proqramına uyğun olaraq məruzələr dinlənilib. MDU-nun Humanitar fənlər kafedrasının müdiri, dosent Esmira Cəfərova “Zərifə xanım Əliyevanın nur saçan portreti”, dosent Namaz Manafov “Böyük ziyalılıq və xeyirxahlıq nümunəsi: Zərifə Əliyeva”, Təhsil fakültəsinin dekan müavini, dosent Flora Namazova “Həyatı və əməlləri ilə başqalarının da ömrünü işıqlandıran xeyirxah alim”, müəllim Ayna Babazadə “Gənclərə örnək olan nurlu ömür salnaməsi” mövzusunda məruzələrlə çıxış ediblər.

**35. MDU-da mühazirə: “Heydər Əliyev: Əbədiyaşar lider, müstəqil Azərbaycan dövlətinin qurucusu və yaradıcısı”**

2023-cü il mayın 8-də Mingəçevir Dövlət Universitetində ″Heydər Əliyev İli″ çərçivəsində “Heydər Əliyev: əbədiyaşar lider, müstəqil Azərbaycan dövlətinin qurucusu və yaradıcısı” mövzusunda mühazirə keçirilib. MDU-nun Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə keçirilən mühazirədə universitetin bir qrup professor-müəllim heyəti üzvü, tələbə və magistrantlar iştirak edib.

Mühazirədə giriş sözü ilə çıxış edən Humanitar fənlər kafedrasının müdiri, dosent Esmira Cəfərova müasir Azərbaycan dövlətinin memarı, ulu öndər Heydər Əliyevin

zəngin irsinin öyrənilməsi və təbliğinin vacibliyindən danışıb, bu məqsədlə universitetdə keçirilən tədbirlərin önəmini diqqətə çatdırıb.

Humanitar fənlər kafedrasının müəllimi Aygün Qədirova məruzə ilə çıxış edib.

**36. MDU-da Müstəqillik Gününə həsr olunan elmi konfrans keçirilib**

2023-cü ilin mayın 23-də Mingəçevir Dövlət Universitetində "Heydər Əliyev İli" çərçivəsində Müstəqillik Gününə həsr olunmuş "Heydər Əliyev və müstəqillik tariximizin şanlı və parlaq səhifəsi: 28 May" mövzusunda elmi konfrans keçirilib. Konfransda MDU-nun bir qrup akademik və inzibati heyət üzvü, tələbə və magistrantları iştirak ediblər. Kafedranın əməkdaşlarından Aygün Qədirova "Heydər Əliyev və Azərbaycanın müstəqillik məfkurəsi", Vüsalə Mövlayeva "Azərbaycan Xalq Cümhuriyyətinin varisi-müasir müstəqil Azərbaycan", Pərvin Hüseynova "Azərbaycan xalqının müstəqillik ideallarının bədii ədəbiyyatda əksi" mövzusunda məruzələrlə çıxış ediblər.

**37. MDU-da dəyirmi masa: "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır və dönməzdir"**

2023-cü il mayın 25-də Mingəçevir Dövlət Universitetində Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə ˝Heydər Əliyev İli˝ çəriçivəsində 28 May – Müstəqillik Gününə həsr olunan "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır və dönməzdir" mövzusunda dəyirmi masa keçirilib. Tədbirdə MDU-nun bir qrup professor-müəllim heyəti üzvü, tələbə və magistrantları iştirak edib.

Tədbirdə giriş sözü ilə çıxış edən Humanitar fənlər kafedrasının müdiri Esmira Cəfərova Müstəqillik Günü münasibətilə iştirakçıları təbrik edib. Şərqdə ilk demokratik dövlətimizin yaranması və qısamüddət ərzində burada həyata keçirilən çoxşaxəli fəaliyyətlərdən danışan E.Cəfərova bildirib ki, xalqımızın köklü dövlətçilik ənənələri və müstəqillik eşqi Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasında müstəsna əhəmiyyət kəsb edib. Cümhuriyyətin varisi olan bugünkü müasir Azərbaycanın etibarlı əllərdə olduğunu vurğulayan E.Cəfərova qeyd edib ki, məhz ümummilli lider Heydər Əliyevin uzaqgörənliyi və titanik fəaliyyəti, onun layiqli siyasi davamçısı Prezident İlham Əliyevin müdrik və qətiyyətli rəhbərliyi sayəsində əbədi və dönməz xarakter alan müstəqilliyimiz daha da güclənməkdədir. Ulu Öndərimizin cümhuriyyət ənənələrinə yüksək qiymət verdiyini diqqətə çatdıran kafedra müdiri bu tarixi dövrün siyasi irsinin öyrənilməsi və gənc nəslə çatdırılmasının önəmindən bəhs edib və tədbirin əhəmiyyətini vurğulayıb.

Sonra Müstəqillik Gününə həsr olunmuş videoçarx izlənilib və Humanitar fənlər kafedrasının müəllimi Şəlalə Quliyevanın moderatorluğu ilə məruzələr dinlənilib.

Humanitar fənlər kafedrasının Tarix müəllimliyi ixtisasının tələbələrindən Aytən Mirzəlizadə ˝Cümhuriyyətə gedən yola siyasi baxış˝, Gülmirə Kazımova ˝Şərqin ilk demokratik dövləti Azərbaycan Xalq Cümhuriyyəti˝, Rövşən Ələkbərov ˝Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət idarəçiliyi˝, Səidə Quliyeva ˝Azərbaycan Xalq Cümhuriyyətinin təhsil siyasəti˝, Nihat Şahbazlı ˝Azərbaycanın milli-mədəni quruculuğunda cümhuriyyət dönəmi˝, Səbinə Əliyeva ˝Azərbaycan Xalq Cümhuriyyəti parlamenti˝, Tural Nağızadə ˝Azərbaycan Xalq Cümhuriyyətinin ordu quruculuğu˝, Rəsul Mirzəyev ˝Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasi əlaqələri˝, Nərgiz Rəsulzadə ˝28 May Azərbaycan dövlətçilik tarixinin parlaq və şanlı səhifəsidir˝, Sədiqə Sadıqova ˝Azərbaycan Xalq Cümhuriyyətinin süqutu˝, İlahə İbrahimova Ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasını Cümhuriyyətin varisi elan etməsi mühüm tarixi-

siyasi hadisədir˝ və Uğur Hüseynov ˝Azərbaycan Xalq Cümhuriyyəti varisi müstəqil Azərbaycan˝mövzusunda çıxışlar ediblər.

**38. MDU-da Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunan elmi-praktik seminar keçirilib**

2023-cü il mayın 25-də Mingəçevir Dövlət Universitetində ˝Heydər Əliyev İli˝ çərçivəsində ˝1 İyun- Uşaqların Beynəlxalq Müdafiəsi Günü˝nə həsr olunan elmi-praktik seminar keçirilib. Seminarda Təhsil fakültəsinin bir qrup professor-müəllim heyəti üzvü, tələbə və magistrantlar iştirak edib.

Humanitar fənlər kafedrasının əməkdaşı Səadət Ağakişiyeva ˝Uşaqların mənəvi-əxlaqi və ədəbi-estetik tərbiyəsində uşaq ədəbiyyatının əhəmiyyəti˝ mövzusunda məruzə ilə çıxış edib.

**38. MDU-da seminar: Narkomaniyaya hamılıqla ˝Yox!˝ deyək**

2023-cü il mayın 25-də Mingəçevir Dövlət Universitetində Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə ˝Narkomaniyaya hamılıqla ˝Yox!˝ deyək˝ devizi altında ˝26 İyun – Narkotik vasitələrin sui-istifadəsi və qanunsuz dövriyyəsi ilə Beynəlxalq Mübarizə Günü˝nə həsr olunan elmi-praktik seminar keçirilib. Seminarda universitetin bir qrup akademik və inzibati heyət üzvü, tələbə və magistrantlar iştirak edib.

Kafedranın əməkdaşı Şəfa Quliyeva "Narkomaniya ilə mübarizə vətəndaşlıq borcudur" mövzusunda məruzə ilə çıxış edib.

**39. MDU-da dəyirmi masa: "Heydər Əliyev və müasir Azərbaycan"**

2023-cü il iyunun 12-də Mingəçevir Dövlət Universitetində "Heydər Əliyev İli" çərçivəsində 15 İyun – Milli Qurtuluş Gününə həsr edilmiş "Heydər Əliyev və müasir Azərbaycan" mövzusunda dəyirmi masa keçirilib. MDU-nun Humanitar fənlər kafedrasının təşkilatçılıq etdiyi dəyirmi masada universitetin bir qrup professor-müəllim heyəti üzvü, tələbə və magistrantlar iştirak ediblər.

Humanitar fənlər kafedrasının müdiri Esmira Cəfərova giriş sözü ilə çıxış edərək 15 iyun tarixinin böyük ictimai, siyasi və tarixi əhəmiyyətindən bəhs edib. Bildirib ki, məhz ümummilli lider Heydər Əliyevin misilsiz xilaskarlıq missiyası sayəsində Azərbaycan müstəqil dövlət kimi mövcudluğunu qoruyub saxlaya bilib, hərtərəfli, dayanıqlı və dinamik inkişaf yoluna qədəm qoyub. Hazırda Ulu Öndərin siyasi kursunu layiqli şəkildə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz müstəqillik tarixinin ən qüdrətli və şanlı dövrünü yaşayır. Ən yeni tariximizlə bağlı həqiqətlərin, əbədiyaşar lider Heydər Əliyevin zəngin dövlətçilik irsinin öyrənilməsi və təbliğinin önəmini diqqətə çatdıran E.Cəfərova tələbələrin iştirakı ilə keçirilən hazırki dəyirmi masanın əhəmiyyətini vurğulayıb.

Milli Qurtuluş Gününə həsr olunmuş videoçarxın nümayişindən sonra MDU-nun Humanitar fənlər kafedrasının baş müəllimi İlham Məmmədovun moderatorluğu ilə tələbələrin çıxışları dinlənilib.

MDU tələbələrindən Nərgiz Rüstəmova "Qurtuluş missiyasının baş verdiyi tarixi şərait", Leyla Manafova "Taleyinə xilaskarlıq yazılmış milli lider", Sevinc Məmmədova "Böyük siyasətə aparan yolun ilk cığırları", Səbinə Əliyeva "Birinci qurtuluş missiyası (1969, 14 iyul)", Nurlana Allahverdiyeva "Dünya miqyaslı siyasi lider (XX əsrin 80-ci illəri)", Rəsul Mirzəyev "Vətənə qayıdış (1990)", Hikmət Qaffarov "Böyük həyat yolunun

Naxçıvan dönəmi (1991-1993)", Sübhan Camalov "Təlatümlərlə dolu Azərbaycan (1992-1993)", Nərgiz Rəsulzadə "Yeni Azərbaycanın xilaskar partiyası (YAP, 1992, 21 noyabr)", Sədiqə Sadıqova "Xalqın ümid yeri. Böyük siyasətə qayıdış", İlahə İbrahimova "Ümummilli lider və Böyük xilaskar" və Uğur Hüseynov "Qurtuluşdan doğan bütöv və yenilməz Azərbaycan" mövzusunda məruzələrlə çıxış ediblər.

**40. MDU-da mühazirə: "Azərbaycan tarixində Heydər Əliyev zirvəsi"**

2023-cü il iyunun 13-də Mingəçevir Dövlət Universitetində (MDU) "Heydər Əliyev İli" çərçivəsində 15 iyun – Milli Qurtuluş Gününə həsr edilmiş "Azərbaycan tarixində Heydər Əliyev zirvəsi" mövzusunda mühazirə keçirilib. MDU-nun Humanitar fənlər kafedrasının təşkilatçılığı ilə keçirilən mühazirədə universitetin bir qrup professor-müəllim heyəti üzvü, tələbə və magistrantlar iştirak edib.

Mühazirədə giriş sözü ilə çıxış edən Humanitar fənlər kafedrasının müdiri, dosent Esmira Cəfərova Milli Qurtuluş Günü münasibətilə təbriklərini çatdırıb. 15 iyunun xalqımız üçün əsl qurtuluş tarixi olduğunu deyən E.Cəfərova bu əlamətdar tarixin məhz böyük xilaskarlıq missiyası ilə ümummilli liderlik zirvəsinə yüksələn ulu öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu qeyd edib. Bildirib ki, xalqımızın qəlbində əbədi heykəlini ucaltmış əbədiyaşar lider Heydər Əliyevin əziz xatirəsi daim böyük ehtiramla yad ediləcəkdir. Dahi şəxsiyyətin zəngin irsinin öyrənilməsi və təbliğinin önəmindən danışan kafedra müdiri bu məqsədlə "Heydər Əliyev İli" çərçivəsində universitetdə təşkil olunan çoxsaylı tədbirlərin əhəmiyyətini vurğulayıb.

Ümummilli Liderə həsr olunan videoçarxın nümayişindən sonra MDU-nun Humanitar fənlər kafedrasının baş müəllimi İlham Məmmədov məruzə ilə çıxış edib.

**41. Milli Qurtuluş Günü qeyd edilib**

2023-cü il iyunun 14-də Mingəçevir Dövlət Universitetində "Heydər Əliyev İli" çərçivəsində 15 iyun – Milli Qurtuluş Gününə həsr edilən "Milli dövlətçiliyimizin xilaskarı" mövzusunda elmi konfrans keçirilib. Konfransda MDU-nun bir qrup akademik və inzibati heyət üzvü, tələbə və magistrantlar iştirak ediblər.

Konfrans iştirakçılarını salamlayan MDU-nun rektoru Şahin Bayramov əlamətdar tarixi gün münasibətilə universitet kollektivini, tələbə və magistrantları təbrik edib.

Otuz il əvvəl iyunun 15-də xalqın təkidli tələbi ilə ölkə rəhbərliyinə qayıdan ümummilli lider Heydər Əliyevin xilaskarlıq missiyasından bəhs edən Ş.Bayramov bu önəmli tarixi hadisəni böyük qurtuluşa və tarixi Zəfərə gedən yolun başlanğıcı kimi xarakterizə edib. Etibarlı və parlaq gələcəyimizə işıq salan dahi şəxsiyyətin zəngin irsinin öyrənilməsi və gənclər arasında təbliğinin önəmini diqqətə çatdıran Ş.Bayramov bu baxımdan "Heydər Əliyev İli" çərçivəsində MDU-da təşkil edilən müxtəlif formatlı çoxsaylı tədbirlərin əhəmiyyətindən danışıb və konfransın işinə uğurlar arzulayıb.

Humanitar fənlər kafedrasının əməkdaşlarından Mətanət Yusifova "Azərbaycan xalqının taleyini dəyişən xilaskarlıq qayıdışı", Gülər Əjdərzadə "Milli qurtuluşdan tarixi zəfərə aparan şanlı yol", Ayna Babazadə "Ulu Öndər Heydər Əliyevin siyasi irsi milli sərvətimizdir", Şəlalə Quliyeva "Azərbaycanın beynəlxalq münasibətlər sisteminin "Yol Xəritəsi"nin müəllifi: Heydər Əliyev" mövzusunda məruzələrlə çıxış ediblər.

**Mingəçevir Dövlət Universiteti və Mərkəzi Aran Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə keçirilmiş elmi konfranslar, seminarlar, dəyirmi masalar və tədbirlərdə Humanitar fənlər kafedrasının və əməkdaşlarının iştirakı haqqında.**

**1. "Heydər Əliyev və Azərbaycan təhsili" mövzusunda elmi-praktik konfrans keçirilib**

2023-cü ilin aprelin 20-də Mingəçevir Dövlət Universiteti Mərkəzi Aran Regional Təhsil İdarəsi (RTİ) və Yevlax Şəhər İcra Hakimiyyətinin (ŞİH) birgə təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycan təhsili" mövzusunda elmi-praktik konfrans keçirilib. Mərkəzi Aran RTİ-nin evsahibliyi etdiyi konfrans "Heydər Əliyev İli" çərçivəsində baş tutub.

Humanitar fənlər kafedrasının dosenti Nizami Zeynalov "Ümummilli liderin ali təhsil siyasəti: universitetlərimiz yeni inkişaf mərhələsində" mövzusunda məruzə ilə çıxış edib.

**2. Mingəçevirdə "Heydər Əliyev İli" çərçivəsində elmi seminar keçirilib**

2023-cü il mayın 19-da Mingəçevir Dövlət Universiteti və Mərkəzi Aran Regional Təhsil İdarəsinin (RTİ) birgə təşkilatçılığı ilə "Heydər Əliyev İli" çərçivəsində "Heydər Əliyevin zəngin dövlətçilik irsinin əsas istiqamətləri" mövzusunda elmi seminar keçirilib. MDU-nun ev sahibliyi ilə keçirilən seminarda Mingəçevir şəhərinin ümumi təhsil məktəblərinin direktorları və universitetin professor-müəllim heyəti üzvləri iştirak edib.

Seminarın proqramına uyğun olaraq məruzələr dinlənilib. Humanitar fənlər aferdasının əməkdaşlarından dosentlər Namaz Manafov "Heydər Əliyevin ana dilimizin inkişafında tarixi xidmətləri", Flora Namazova "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı", Asim Məmmədov "Müasir Azərbaycan dövlətinin memarı və qurucusu", filologiya üzrə fəlsəfə doktorları Rahilə Məmmədova "Milli-mənəvi dəyərlərimizin qoruyucusu" və Günel Yunusova "Heydər Əliyevin irsi milli sərvətimizdir" mövzusunda məruzələrlə çıxış ediblər.

**3. MDU-da elmi seminar: "Azərbaycan dili və ədəbiyyat fənlərinin tədrisində innovativ təlim metodlarından istifadə"**

2023-cü il mayın 24-də Mingəçevir Dövlət Universiteti və Mərkəzi Aran Regional Təhsil İdarəsinin (RTİ) birgə təşkilatçılığı ilə "Heydər Əliyev İli" çərçivəsində "Azərbaycan dili və ədəbiyyat fənlərinin tədrisində innovativ təlim metodlarından istifadə" mövzusunda elmi seminar keçirilib. MDU-nun ev sahibliyi ilə keçirilən seminarda Mingəçevir şəhərinin ümumi təhsil məktəblərinin müəllimləri və universitetin professor-müəllim heyəti üzvləri iştirak edib.

Seminarda giriş sözü ilə çıxış edən MDU-nun Humanitar fənlər kafedrasının müdiri, dosent Esmira Cəfərova müasir müstəqil Azərbaycanın memarı Heydər Əliyevin xalqımızın milli-mənəvi dəyərlərinin qorunması və daha da zənginləşdirilməsinə, Azərbaycan dili və ədəbiyyatının inkişafına göstərdiyi yüksək diqqət və qayğıdan bəhs edib. Bildirib ki, Azərbaycan dilinin hərətərfli inkişafı, ümumişlək dilə və dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, dünyanın böyük dövlətlərinin və beynəlxalq təşkilatların kürsülərində səslənməsi bilavasitə ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Milli xüsusiyyətlərimizin saxlanmasında ana dili və ədəbiyyatımızın başlıca rolundan danışan E.Cəfərova hazırda Ümummilli Liderin dil siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb. Təhsil müəssisələrində Azərbaycan dili və ədəbiyyat fənlərinin tədrisinin davamlı təkmilləşdirilməsinin vacibliyindən söhbət açan

E.Cəfərova “Heydər Əliyev İli” çərçivəsində MDU və Mərkəzi Aran RTİ arasında təsdiq edilmiş Tədbirlər Planına daxil olan hazırki seminarın əhəmiyyətini diqqətə çatdırıb.

Sonra, seminarın proqramına uyğun olaraq məruzələr dinlənilib.

MDU-nun akademik heyət üzvlərindən Könül Aydın “Azərbaycan dili və ədəbiyyat dərslərində şagirdlərin ekspressiv nitq bacarıqlarının formalaşdırılmasında essenin rolu”, Gülxar Yusibova “Azərbaycan dili dərslərində oxu təliminin təşkilində qarşıya çıxan problemlər” və Səadət Ağakişiyeva “Ədəbiyyat təlimində 4K, 3E, 5E,və TTİMY təlim modellərindən istifadə” mövzusunda məruzələrlə çıxış ediblər.

**4. Yevlaxda Ümummilli Liderə həsr olunan mühazirələr təşkil olunub**

2023-cü il mayın 31-də Yevlax şəhər 2 saylı tam orta məktəbdə Mingəçevir Dövlət Universiteti (MDU) və Mərkəzi Aran Regional Təhsil İdarəsinin (RTİ) birgə təşkilatçılığı ilə “Heydər Əliyev İli” çərçivəsində “Heydər Əliyev müstəqil Azərbaycanın qurucusudur” mövzusunda mühazirə keçirilib. Mühazirədə MDU-nun bir qrup professor-müəllim heyəti, Yevlax şəhəri ümumi təhsil məktəblərinin direktorları, müəllim və şagird kollektivi üzvləri iştirak ediblər.

Humanitar fənlər kafedrasının dosenti Namaz Manafov “Heydər Əliyev və Azərbaycan dilinin inkişafı” və müəllimi Mirzə Cavadov “Ulu Öndərin Azərbaycan dövlətçiliyinin inkişafında rolu” mövzusunda məruzələrlə çıxış ediblər.

**5. MDU-nun alimləri Zərdabda mühazirələr oxuyublar**

2023-cü il iyunun 6-da ˝Heydər Əliyev İli˝ çərçivəsində “Heydər Əliyev müstəqil Azərbaycanın qurucusudur” mövzusunda mühazirə keçirilib. Zərdab rayon 1 nömrəli məktəb liseyində keçirilən tədbirdə həmin rayonun ümumtəhsil məktəblərinin müəllim və şagirdləri, MDU-nun bir qrup professor-müəllim heyəti üzvləri iştirak edib.

Tədbiri giriş sözü ilə açan Zərdab rayon Təhsil Sektorunun müdiri Gülağa İsgəndərov və Humanitar fənlər kafedrasının dosenti Flora Namazova ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycanın qurulmasında göstərdiyi əvəzsiz xidmətlər, hakimiyyətə gəldiyi dövrlərdəki çətin siyasi vəziyyətlərdə uzaqgörənliklə mübarizə aparması, ölkənin hərtərəfli inkişafı və dünya dövlətləri arasında söz sahibinə çevrilməsinə zəmin yaratması və ˝Təhsil millətin gələcəyidir!˝ deyərək təhsilin inkişaf etdirilməsindəki müstəsna xidmətləri haqqında məlumat veriblər.

Tədbirdə Humanitar fənlər kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Namaz Manafov və müəllim Aygün Qədirova məruzələrlə çıxış ediblər.
Təqdim olunan məruzələr iştirakçılar tərəfindən maraqla qarşılanıb.

**6. Ağdamda “Heydər Əliyev İli” çərçivəsində elmi-praktiki konfrans keçirilib**

2023-cü il iyunun 6-da Mingəçevir Dövlət Universiteti və Ağdam Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “Heydər Əliyev İli” çərçivəsində “Heydər Əliyevin zəngin dövlətçilik irsinin əsas istiqamətləri” mövzusunda elmi-praktiki konfrans keçirilib. Ağdam rayon Heydər ƏliyevMərkəzində keçirilən konfransda rayon ictimaiyyətinin nümayəndələri, hüquq mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, İcra Hakimiyyətinin aparat nümayəndələri, MDU-nun bir qrup professor-müəllimləri iştirak edib.

Konfransda Humanitar fənlər kafedrasının əməkdaşlarından Mirzə Cavadov “Heydər Əliyev – Milli Xilaskar, Milli Lider”, Asim Məmmədov “Müasir Azərbaycan

dövlətinin memarı və qurucusu”, Rahilə Məmmədova “Milli-mənəvi dəyərlərimizin qoruyucusu” və Günel Yunusova “Heydər Əliyevin irsi milli sərvətimizdir” mövzularında məruzə ilə çıxış edib.

**7. Yevlaxda “Heydər Əliyevin zəngin dövlətçilik irsinin əsas istiqamətləri” mövzusunda elmi seminar keçirilib**

2023-cü ilin iyulun 7-də “Heydər Əliyev İli” çərçivəsində Mingəçevir Dövlət Universiteti (MDU) ilə Mərkəzi Aran Regional Təhsil İdarəsi (RTİ) arasında imzalanmış Tədbirlər Planına uyğun olaraq Yevlax rayonu Xaldan kənd kompleks tam orta məktəbində “Heydər Əliyevin zəngin dövlətçilik irsinin əsas istiqamətləri” mövzusunda elmi seminar keçirilib.

Humanitar fənlər kafedrasının dosentləri Namaz Manafov “Heydər Əliyevin ana dilimizin inkişafında tarixi xidmətləri”, Asim Məmmədov “Müasir Azərbaycan dövlətinin memarı və qurucusu”, Flora Namazova “Heydər Əliyev və Azərbaycan ədəbiyyatı”, baş müəllimləri Rahilə Məmmədova “Milli-mənəvi dəyərlərimizin qoruyucusu” və Günel Yunusova “Heydər Əliyevin irsi milli sərvətimizdir” mövzularında məruzələrlə çıxış ediblər.

**8. Ağdaşda Ümummilli Liderə həsr olunan elmi seminar keçirilib**

2023-cü ilin iyulun 7-də “Heydər Əliyev İli” çərçivəsində Mingəçevir Dövlət Universiteti (MDU) ilə Mərkəzi Aran Regional Təhsil İdarəsi (RTİ) arasında imzalanmış Tədbirlər Planına uyğun olaraq Ağdaş şəhər M.Şeyxzadə adına İnternat tipli Texniki, Humanitar və Təbiət fənləri təmayüllü Gimzaniyada “Heydər Əliyevin zəngin dövlətçilik irsinin əsas istiqamətləri” mövzusunda elmi seminar keçirilib.

Tədbirdə kafedranın alimləri Namaz Manafov, Asim Məmmədov, Flora Namazova, Rahilə Məmmədova və Günel Yunusovanın təqdimatında məruzələr dinlənilib.

**9. Mingəçevirdə elmi-praktiki konfrans keçirilib**

Mingəçevir Dövlət Universitetində “Qərbi Azərbaycan irsinin tanıdılmasında Ümumilli Lider Heydər Əliyevin rolu” mövzusunda elmi-praktiki konfrans keçirilib. Tədbir Bakı Politoloqlar Klubunun təşkilatçılığı və Qeyri- Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə baş tutub.

MDU-nun professor-məllim və tələbə heyəti üzvlərinin, Mingəçevir şəhər ictimaiyyət nümayəndələrinin qatıldığı tədbiri Universitetin rektoru Şahin Bayramov açıb. Qonaqları və iştirakçıları salamlayan Ş.Bayramov mövzunun aktuallığından bəhs edib, sözügedən istiqamətdə maarifləndirici tədbirlərin keçirilməsinin vacibliyindən bəhs edib. Daha sonra, Bakı Politoloqlar Klubunun sədri, Qərbi Azərbaycan İcmasının üzvü Zaur Məmmədov “Qərbi Azərbaycan irsinin tanıdılmasında Ümumilli Lider Heydər Əliyevin rolu” layihəsinin məqsədləri haqqında auditoriyanı məlumatlandırıb, Milli Məclisin deputatı, dosent Aydın Mirzəzadə “Qərbi Azərbaycan tarixi irsinin qorunmasında Heydər Əliyev siyasəti”, Prezident kitabxanasının şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü Nazim Mustafayev “Qərbi Azərbaycanın son 200 illik tarixi xronikası. Ulu Öndər Heydər Əliyevin Qərbi Azərbaycanla bağlı çağırışlarının müasir proseslərdə təzahürü” mövzusunda çıxış ediblər.

Kafedra müdiri, dosent Esmira Cəfərova isə “Qərbi Azərbaycan milli siyasətimizin ən mühüm hədəfi” mövzusunda məruzə edib, yeni dövrün reallıqları və ölkəmiz qarşısında dayanan yeni məqsədlər haqqında ətraflı məlumat verib.